GYTS | Gənclər arasında Tütündən istifadənin Qlobal Tədqiqatı

İNFORMASİYA BÜLLETENİ
**AZƏRBAYCAN 2016**

## GYTS: Məqsədlər

Gənclər arasında Tütündən istifadənin Qlobal Tədqiqatı (GYTS) Qlobal Tütünə Nəzarət Sisteminin (GTSS) bir hissəsidir, gənclər arasında tütündən (çəkilən və tüstüsüz) istifadənin sistematik monitorinqi və tütünlə mübarizənin əsas indikatorlarına nəzarət üçün qlobal standartdır.

GYTS 13-15 yaşlı şagirdlər arasında keçirilən milli reprezentativ məktəb sorğusudur və hər bir ölkə üzrə çarpaz qiymətləndirilməni aparmaq üçün nəzərdə tutulub. GYTS standart əsas sorğu anketindən, seçmə dizaynından və məlumatların toplanması protokolundan istifadə edir. GYTS ölkədaxili və ölkələrarası müqayisə edilə bilən məlumatların yaradılması üçün Tütünə qarşı mübarizə haqqında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Çərçivə Konvensiyası (TMÇK) üzrə öz öhdəliklərinin yerinə yetirilməsində ölkələrə yardım edir. ÜST TMÇK-da əks olunmuş tütünə tələbatı azaldan MPOWER adlı seçilmiş tədbirlər kompleksini tərtib etdi:

**Monitor:** Tütün istehlakının və profilaktik strategiyaların monitorinqi
**Protect:** İnsanların tütün tüstüsündən mühafizəsi
**Offer:** Tütündən imtina üzrə kömək təklifi
**Warn:** Tütünlə bağlı təhlükələrə dair xəbərdarlıq
**Enforce:** Tütünün reklamına, satışının stimullaşdırılmasına və sponsorluğuna qoyulmuş qadağaların tətbiqi
**Raise:** Tütün məmulatlarına qoyulan vergilərin artırılması

## GYTS: Metodologiya

GYTS ölkə məktəblərinin siyahısı əsasında mütənasib ehtimalı ilə seçilmiş məktəblərin iki mərhələli seçmə üsulu daxil olan qlobal standartlaşdırılmış metodologiyadan istifadə edir. Seçilmiş məktəblərin sinifləri təsadüfi üsulla seçilir və seçilmiş siniflərin bütün şagirdləri sorğuda iştirak etmək hüququ qazanırlar. Tədqiqat standart əsas sorğu anketi ilə yanaşı tütündən istifadə və əsas tütünə nəzarət indikatorları üzrə ölkə şəraitinə uyğunlaşdırıla bilən əlavə suallar dəstindən istifadə edir. Sorğu anketi aşağıdakı mövzuları əhatə edir: tütündən (çəkilən və tüstüsüz) istifadə, tütündən imtina, ikincili tütün tüstüsü (İTT), tütünə tərəf və tütün əleyhinə media və reklam, tütün məmulatlarının əlçatanlığı və mövcudluğu, tütünlə bağlı bilik və münasibət. Sorğu anketi özü doldurulan, konfidensiallığı təmin etmək üçün anonim, skan edilə bilən vərəqədən ibarətdir.

Azərbaycanda GYTS 2016-cı ildə Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən keçirilmişdir. Ümumi cavablandırma əmsalı 97.9% təşkil etdi. Sorğuda cəmi 2220 nəfər 8-10-cu sinif şagirdi iştirak etdi, onlardan 2122-si 13-15 yaşda idi. Təqdim edilən məlumatlar 13-15 yaşlı şagirdlərə aiddir.

## GYTS: Əsas faktlar

### TÜTÜNDƏN İSTİFADƏ

- Şağirdlərin 8.4%-i (12.9% oğlan və 3.1% qız) hazırda bu və ya digər tütün məmulatından istifadə edir.
- Şağirdlərin 7.3%-i (11.6% oğlan və 2.3% qız) hazırda tütün çəkir.
- Şağirdlərin 2.9%-i (4.6% oğlan və 1.0% qız) hazırda siqaret çəkir.
- Şağirdlərin 1.8%-i (2.4% oğlan və 1.1% qız) hazırda tüstüsüz tütün çəkir.

### TÜTÜNDƏN İMTİNA

- Hazırda tütün çəkən 10 şagirddən 6-sı son 12 ayda tütündən imtina üçün cəhd etmişdir.

### İKİNCİLİ TÜTÜN TÜSTÜSÜ

- Şagirdlərin 28.8%-i evdə tütün tüstüsünün təsirinə məruz qalır.
- Şagirdlərin 40.8%-i qapalı ictimai yerlərdə tütün tüstüsünün təsirinə məruz qalır.

### ƏLÇATANLIQ VƏ MÖVCUDLUQ

- Hazırda siqaret çəkənlərin 91.1%-i siqareti mağazadan, küçə satıcısından və ya köşkdən alıb.
- Siqaret alan hazırda siqaret çəkənlərin 64.8%-inə yaşı az olduğuna görə satıcı tərəfindən siqaretin satılmasından imtina edilməyib.

### MEDİA

- 10 şagirddən 6-sı media vasitələrində tütün əleyhinə məlumat görüb.
- 10 şagirddən 3-ü ticarət obyektlərində tütünün reklamını və ya satışının stimullaşdırılmasını görüb.
- 10 şagirddən birində siqaret markasının şəkilini özündə əks etdirən bu və ya digər əşya vardır.

### BİLİK VƏ MÜNASİBƏT

- Şagirdlərin 81.8%-i düşünür ki, başqalarının siqaret çəkməsi onlara zərər yetirir.
- Şagirdlərin 82.8%-i düşünür ki, qapalı ictimai yerlərdə tütünçəkmə qadağan edilməlidir.

World Health Organization
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
CDC
İctimai Səhiyyə və İslahatlar Mərkəzi

## TÜTÜNDƏN İSTİFADƏ

| ÇƏKİLƏN TÜTÜN | CƏMİ (%) | OĞLAN (%) | QIZ (%) |
|---|---|---|---|
| Hazırda tütün çəkənlər[1] | 7.3 | 11.6 | 2.3 |
| Hazırda siqaret çəkənlər[2] | 2.9 | 4.6 | 1.0 |
| Tez-tez siqaret çəkənlər[3] | 1.0 | 1.6 | 0.3 |
| Hazırda digər tütün məmulatlarını çəkənlər[4] | 5.8 | 9.3 | 1.7 |
| Nə vaxtsa tütün çəkənlər[5] | 18.0 | 26.3 | 8.4 |
| Nə vaxtsa siqaret çəkənlər[6] | 10.3 | 15.1 | 4.8 |
| Nə vaxtsa digər tütün məmulatlarını çəkənlər[7] | 12.4 | 19.3 | 4.5 |
| **TÜSTÜSÜZ TÜTÜN** | | | |
| Hazırda tüstüsüz tütün istifadəçiləri[8] | 1.8 | 2.4 | 1.1 |
| Nə vaxtsa tüstüsüz tütündən istifadə edənlər[9] | 4.5 | 5.5 | 3.4 |
| **TÜTÜNDƏN İSTİFADƏ** *(çəkilən və/və ya tüstüsüz)* | | | |
| Hazırda tütündən istifadə edənlər[10] | 8.4 | 12.9 | 3.1 |
| Nə vaxtsa tütündən istifadə edənlər[11] | 20.4 | 29.1 | 10.4 |
| **MEYİLLİLİK** | | | |
| Gələcəkdə tütündən istifadə etməyə meyilli olan heç vaxt tütündən istifadə etməyənlər[12] | 8.0 | 11.3 | 5.1 |
| Siqaret çəkmək xoşuna gələ biləcəyini düşünən heç vaxt çəkməyənlər[13] | 4.3 | 5.5 | 3.4 |




## TÜTÜNDƏN İMTİNA

| | CƏMİ (%) | OĞLAN (%) | QIZ (%) |
|---|---|---|---|
| Son 12 ay ərzində siqaret çəkməyi tərgitmək üçün cəhd edən hazırda çəkənlər | 65.0 | 60.9 | - |
| İstədiyi vaxt siqaret çəkməyi tərgidə biləcəyini düşünən hazırda çəkənlər | 71.2 | 73.6 | - |
| Siqaret çəkməyi tərgitməklə bağlı nə vaxtsa mütəxəssisdən kömək və ya məsləhət alan hazırda çəkənlər | 26.0 | 21.0 | - |

## İKİNCİLİ TÜTÜN TÜSTÜSÜ

| | CƏMİ (%) | OĞLAN (%) | QIZ (%) |
|---|---|---|---|
| Evdə tütün tüstüsünün təsirinə məruz qalma†† | 28.8 | 28.3 | 29.1 |
| Hər hansı qapalı ictimai yerdə tütün tüstüsünün təsirinə məruz qalma†† | 40.8 | 45.2 | 35.6 |
| Hər hansı açıq ictimai yerdə tütün tüstüsünün təsirinə məruz qalma†† | 42.2 | 45.6 | 38.3 |
| Məktəb binası daxilində və ya məktəbin həyətində kiminsə siqaret çəkdiyini görmüş şagirdlər† | 43.7 | 44.5 | 42.8 |

## ƏLÇATANLIQ VƏ MÖVCUDLUQ

| | CƏMİ (%) | OĞLAN (%) | QIZ (%) |
|---|---|---|---|
| Siqareti mağazadan, küçə satıcısından və ya köşkdən alan hazırda siqaret çəkənlər[14] | 91.1 | 92.0 | - |
| Yaşı az olduğuna görə satıcı tərəfindən siqaretin satılmasından imtina edilməyən hazırda siqaret çəkənlər[15] | 64.8 | - | - |
| Ədədlə siqaret alan hazırda siqaret çəkənlər[16] | 44.0 | 41.5 | - |

## MEDİA

| TÜTÜN REKLAMI | CƏMİ (%) | OĞLAN (%) | QIZ (%) |
|---|---|---|---|
| Ticarət obyektlərində tütünün reklamını və ya satışının stimullaşdırılmasını görən şagirdlər[17] | 32.5 | 34.7 | 29.5 |
| Televiziya, video və ya filmlərdə kiminsə tütündən istifadə etdiyini görən şagirdlər[18] | 68.9 | 70.2 | 67.6 |
| Tütün şirkəti üçün çalışan şəxs tərəfindən nə vaxtsa pulsuz tütün məmulatı təklif edilən şagirdlər | 5.9 | 8.6 | 2.8 |
| Siqaret markasının şəkilini özündə əks etdirən bu və ya digər əşyası olan şagirdlər | 8.7 | 11.7 | 5.2 |
| **TÜTÜN ƏLEYHİNƏ REKLAM** | | | |
| Media vasitələrində tütün əleyhinə məlumat görən şagirdlər† | 62.3 | 59.7 | 65.3 |
| İdman yarışlarında və ya tədbirlərdə tütün əleyhinə məlumat görən şagirdlər[19] | 45.3 | 45.3 | 45.4 |
| Xəbərdarlıq yazısına görə tütündən imtina etməyi düşünən hazırda siqaret çəkənlər[20] | 54.0 | 55.8 | - |
| Son 12 ay ərzində məktəbdə tütündən istifadənin təhlükələri haqqında məlumat almış şagirdlər | 66.0 | 62.9 | 69.7 |

## BİLİK VƏ MÜNASİBƏT

| | CƏMİ (%) | OĞLAN (%) | QIZ (%) |
|---|---|---|---|
| Tütün çəkməyə yeni başlayan insan üçün tütün çəkməyi tərgitmək çətin olacağı barədə düşünən şagirdlər | 17.3 | 18.9 | 15.5 |
| Bayram, görüş və ya digər yığıncaqlarda insanların tütün çəkməyi onların özlərini daha rahat hiss etməsinə təsir etdiyini düşünən şagirdlər | 25.1 | 26.5 | 23.3 |
| Ətrafdakı insanların tütün çəkməsi nəticəsində onlara dəyən zərər haqqında düşünən şagirdlər | 81.8 | 78.5 | 85.7 |
| Qapalı ictimai yerlərdə tütün çəkmənin qadağan edilməsinə tərəf olan şagirdlər | 82.8 | 78.4 | 87.8 |
| Açıq ictimai yerlərdə tütün çəkmənin qadağan edilməsinə tərəf olan şagirdlər | 80.0 | 76.4 | 84.3 |

[1] Son 30 gün ərzində istənilən vaxt tütün çəkib. [2] Son 30 gün ərzində istənilən vaxt siqaret çəkib. [3] Son 30 gün ərzində 20 gündən çox siqaret çəkib. [4] Son 30 gün ərzində istənilən vaxt, siqaret istisna olmaqla, digər tütün məmulatlarını çəkib. [5] Nə vaxtsa hər hansı tütün məmulatını çəkməyə cəhd edib, məsələn, bir-iki qullab alıb. [6] Nə vaxtsa siqaret çəkməyə cəhd edib, məsələn, bir-iki qullab alıb. [7] Nə vaxtsa, siqaret istisna olmaqla, digər tütün məmulatlarını çəkməyə cəhd edib, məsələn, bir-iki qullab alıb. [8] Son 30 gün ərzində istənilən vaxt tüstüsüz tütündən istifadə edib. [9] Nə vaxtsa tüstüsüz tütündən istifadə edib. [10] Son 30 gün ərzində istənilən vaxt tütün çəkib və/və ya tüstüsüz tütündən istifadə edib. [11] Nə vaxtsa tütün çəkib və/və ya tüstüsüz tütündən istifadə edib. [12] Gələcəkdə tütündən istifadəni ehtimal edir, o cümlədən ən yaxın dostlarından biri tütün məmulatı təklif edərsə, onu istifadə edəcəyinə dair "Əlbəttə istifadə edərəm", "Yəqin ki, istifadə edərəm" və ya "Yəqin ki, istifadə etmərəm" cavabı verənləri, ya da növbəti 12 ay ərzində tütün məmulatından istifadə edəcəyinə dair "Əlbəttə çəkəcəyəm", "Yəqin ki, çəkəcəyəm" və ya "Yəqin ki, çəkməyəcəyəm" cavabı verənləri əhatə edir. [13] "Düşünürəm ki, siqaret çəkmək xoşuma gələ bilər" ifadəsinə "Razıyam" və ya "Tam razıyam" cavabı verənləri əhatə edir. [14] Son 30 gün ərzində respondent axırıncı dəfə çəkdiyi siqareti necə əldə etmişdir. [15] Son 30 gün ərzində siqaret almağa cəhd edənlər. [16] Son 30 gün ərzində siqaret alanların axırıncı alış-verişinə əsaslanır. [17] Son 30 gün ərzində ticarət obyektlərinə baş çəkənlər. [18] Son 30 gün ərzində televiziya, video və ya filmlərə baxanlar. [19] Son 30 gün ərzində idman yarışlarında və ya tədbirlərdə iştirak edənlər. [20] Son 30 gün ərzində siqaret qutuları üzərində xəbərdarlıq yazısını görənlər. † Son 30 gün ərzində. †† Son 7 gün ərzində.

**QEYD:** Şagirdlər məktəbdə təhsil alan 13-15 yaşlı şəxslərdir. Məlumatlar bütün 13-15 yaşlı məktəblilərə dair milli miqyasda reprezentativ olmaq üçün ölçülmüşdür. Göstəricilər bütün qruplar üzrə yox, hər qrupda hər bir indikatorun yayılmasını əks etdirir.

-- 35-dən az olan çəkilməmiş hallara əsaslanan hesablamalar göstərilmir.

Son yenilənmə: 13 avqust 2016-cı il